# "Qayğısı, diqqəti ilə bizə təsəlli olan dövlətimizə minnətdarıq"

**Ölkələrin keçdiyi tarixi yola nəzər saldıqda hər bir dövlətin inkişafında, güclənməsində, tanınmasında, xalqının taleyində qadınların həlledici rola malik olduğunu görməmək mümkün deyil. Azərbaycanda da qadınlar ölkə tarixinin bütün dövrlərində xalqın taleyüklü məsələlərinin həll edildiyi məqamlarda önə çıxaraq fəal iştirakçı olublar.**

Azərbaycan qadını qəhrəmanlığı, vətən sevgisi, siyasi və dövlət quruculuğu sahəsində göstərdiyi fəaliyyəti ilə həmişə örnək olub. Qadınlarımızın savaş meydanlarında göstərdikləri qəhrəmanlıqlar əbədi olaraq xalqımızın yaddaşında tarixləşib. İftixar etməyə haqqımız var ki, Şərqdə ilk dəfə qadına səsvermə hüququ 1918-ci ildə Azərbaycanda verilib.

Ölkəmizdə qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Qadınların cəmiyyətdə rolunu yüksək dəyərləndirən Ulu Öndər demişdir: "Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi, indi də cəmiyyətdə aparıcı rol oynayırlar".

Azərbaycan Respublikasının Konstitusiyası qadın və kişilərin bərabər hüquqlarını, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququnu təmin edir. Bu da demokratik cəmiyyət quruculuğunda qadınların iştirakının hüquqi bazasının əsasını təşkil edir. İftixarla qeyd edə bilərik ki, ölkəmizdə ən ali vəzifələrdən biri - Birinci vitse-prezident vəzifəsi qadına etibar edilib. Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi ilə tarixdə ilk dəfə Azərbaycan qadınına bu qədər yüksək etimad göstərilib.

Bu gün Azərbaycanda lider qadınlar, sahibkar xanımlar yetişir. İqtisadiyyatda, siyasətdə, elmdə, təhsildə, bir sözlə, həyatımızın bütün sahələrində qadınlarımızın fəal iştirakını görürük. Azərbaycan qadınları cəmiyyətin dinamik inkişafı istiqamətində həyata keçirilən irimiqyaslı layihələrdə öz fəallıqları ilə seçilirlər.



Həmsöhbətimiz **Günel Əliyeva** Laçın rayonunun Zabux kəndində yaşayır. Doğma yurda ilk qayıdanlardandır. Deyir ki, ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin memarı və qurucusu olduğu müasir, müstəqil Azərbaycan dövlətini 2003-cü ildən sonra bütün sahələr üzrə uğurla inkişaf etdirərək müstəqilliyimizi tam bərpa edib möhkəmləndirən Pezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya bizə - keçmiş məcburi köçkünlərə göstərdikləri hərtərəfli diqqət və qayğıya görə minnətdarlığımı bildirmək istəyirəm: "Qaçqınlıq həyatımızdan çox danışmaq istəmirəm. Təbii ki, o illəri unutmaq istəsək də, bu, mümkün deyil. Yalnız onu qeyd etmək istəyirəm ki, əlimiz hər şeydən üzülmüşdü. Artıq ümidimiz də itmək üzrə idi. Belə bir məqamda Vətən müharibəsi başladı. Adətən, müharibə ölüm, fəlakət, ayrılıq gətirsə də, bu dəfə bizim ümidimizi qaytardı. Prezidentin sentyabrın 26-da xalqa müraciətini eşidəndə səsindəki qətiyyəti duyduq. Ölmək üzrə olan ümidimiz birdən-birə qələbə ruhuna kökləndi. İçimizdə qəribə bir inam yarandı. Əmin olduq ki, bu yumruq elə belə düyünlənməyib. Bu, bizi Zəfərə aparacaq. Biz torpaqlarımıza qayıdacağıq... İnanın, öz doğma torpağımızda çadırda yaşamağa belə razı idik. Bizi əsl cənnətə qaytardılar. Səhər yuxudan durub Zabuxun bu gözəl mənzərəsini seyr edəndə fərəhdən, qürurdan gözlərim yaşarır. Axşamlar parkdan qəhqəhə, musiqi səsi kəsilmir. Bəlkə də dünyanın hər yerindən bura turistlər axışıb gəlir. Övladlarım Tuncayla Tunay soruşurlar ki, bura haradır? Cavab verirəm ki, bura cənnətdir. Təkrar soruşurlar ki, biz niyə indiyə kimi cənnətdə yaşamamışıq. Deyirəm ki, Allaha şükür edin ki, Prezidentimiz bizi cənnətlə mükafatlandırdı... 26 avqust həyatımızın ən gözəl günüdür. Bu, təkcə bu gözəl evə, Zabuxa qayıtdığımıza görə bizim üçün əlamətdar tarix deyil. 26 avqust yaddaşımızda Birinci vitse-prezident Mehriban xanımın öz doğum gününü Zabuxda qeyd etdiyi gün kimi tarixləşdi. Ali təhsilliyəm. Çox insanlar görmüşəm. Alimlərdən, professorlardan dərs almışam. Bir həyat dərsini də Mehriban xanımdan aldım. İnsan nə qədər sadə, səmimi olarmış".

Söhbətinə davam edən Günel xanım dedi ki, Prezidentin evimizə gələcəyini bilmirdik: "İnanın, Prezidenti, Mehriban xanımı həyətimizdə görəndə həm sevindik, həm də çox təəccübləndik. Öz münasibətləri, səmimi söhbətləri ilə illərdir çəkilən əzabları bizə unutdurdular. Həyatımızda yeni, gözəl, xoşbəxt səhifənin başlandığını hiss etdik. İndi məndən soruşan olur ki, Zabux necə yerdir? Çəkinmədən deyirəm, bura xoşbəxtlik adasıdır. Bura böyük qələbənin rəmzidir. Qarşı tərəf erməni kəndləridir. Yəqin ki, indi onlar da burada yaradılan gözəllikləri görürlər. Əgər azacıq vicdanları olsa, 30 il viranə qoyduqları torpaqlarda yaradılan şəraiti görüb utanarlar... Bizə bu xoşbəxtliyi bəxş edən dövlətimə, hər zaman bizə qayğı göstərən Prezidentimizə, bir ana qayğısı ilə hər dərdimizə əlac olan Mehriban xanıma minnətdaram. Bu bayram günündə heç çəkinmədən deyə bilərəm ki, mən bu azad ölkənin bəxtəvər qızıyam".



Digər həmsöhbətimiz **Sevinc Cabbarova** Laçın şəhərindəki 2 saylı tam orta məktəbin ilk məzunlarından olub. Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində öz yurduna qayıtdıqdan sonra doğma təhsil ocağına rəhbərlik edir. Sevinc xanım deyir ki, 40 ilə yaxındır pedaqoji fəaliyyətlə məşğuldur: "14 ildir direktor kimi fəaliyyət göstərirəm. Həyatımın böyük bir hissəsini köçkün həyatı yaşasam da, heç vaxt ruhdan düşmədim. Dövlətimə güvəndim, Prezidentimə inandım. İlham Əliyevin "Biz öz doğma torpaqlarımızı azad edəcəyik" sözləri yaşamağımız üçün stimul oldu. Çox şükür ki, Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə torpaqlarımız azad oldu. Tarixi zəfər çaldıq. İndi öz doğma yurdumda - Laçındayam. Pedaqoji fəliyyətimi davam etdirirəm. Hazırda məktəbimizdə 163 şagird təhsil alır. Məqsədimiz vətən üçün layiqli vətəndaş yetişdirməkdir. Heç şübhəsiz ki, buna layiqincə də nail olacağıq. Bir məsələni qeyd edim ki, 8 Mart Qadınlar Günü məktəbimizdə təntənəli qeyd olunacaq. Biz 31 il bayramları göz yaşı içində, yurd həsrəti ilə keçirdik. Artıq hər şey keçmişdə qalıb. Dövlətimizin bizə bəxş etdiyi bu həyat dərdlərimizə dərman oldu. Dövlətimizlə, ordumuzla, bu qəhrəman orduya sərkərdəlik edib, bizə qələbə sevinci yaşadan Ali Baş Komandanımızla fəxr edirik".

Şuşadan olan həmsöhbətimiz **Səbinə Gözəlova** dedi:



- Öncə milli birliyimizin və ərazi bütövlüyümüzün qorunub saxlanılması yolunda canından keçmiş şəhidlərimizin ana və bacıları başda olmaqla bütün Azərbaycan xanımlarını təbrik edir, onlara cansağlığı uzun ömür arzulayıram. İllərlə Şuşa həsrəti ilə yaşadıq. Bu gözəl diyarı yuxularımızda görməklə təsəlli tapdıq. Çox şükür ki, indi həsrətində olduğum Vətən deyib canıma-qanıma hopan Şuşamda sakin kimi yaşayıram. 32 il sahibini gözləyən şəhərimdə sabahlarımı açmaq mənim ən böyük sevincim və qürurumdur. Bu gün üçün Ali Baş Komandanımıza və Mehriban xanıma çox dərin təşəkkürümü bildirirəm. Siz mənə təkcə bir mənzilin açarını deyil, eyni zamanda Şuşalı günlərimi, körpə xatirələrimi və keçmişimi təqdim etdiniz. Bir daha sizə dərin təşəkkürümü bildirirəm.



Söhbətimizi Xocalı şəhər sakini **Elmira Allahverdiyeva** ilə davam etdirdik. Elmira xanım dedi ki, Xocalıya dönən ilk 20 ailədən biri də bizik: "Bu torpaqlar uğrunda ailəmdən 4 nəfər şəhid olub. Yoldaşım Novruzla oğlum Mahir itkin düşüblər, məzarları belə yoxdur… Çox şükür ki, Müzəffər Ali Baş Komandan torpaqlarımızı azad etdi. Bir baxın, ermənilərin yandırıb, dağıdıb, viran qoyduqları bütün Qarabağ cənnətə dönür. Hər səhər dürüb Xocalıya baxanda bir yenilik görürük. Bu gün biz burada - Xocalıda, Xankəndidə, bütün Qarabağdayıq. Qazandığımız qələbə dərdlərimizə dərman oldu. Xocalıda tikilən hər yeni binanı görəndə elə zənn edirəm ki, oğluma yeni bir abidə qoyulur. Prezidentlə görüşdə də demişəm ki, daha ağlamayacağam. Elə zənn edirəm ki, itkin balamın ruhu da bizimlə bu evdə - Xocalıdadır... Qələbəmiz qürurumuz, sevincimiz oldu. Mən Xocalı işğal olandan bayram keçirmirdim. Amma bu il mənim üçün gerçək bir bayramdır. Novruz bayramında da səməni əkib yumurta boyayacam. Prezidentimiz Qarabağı azad etməklə bizim hər günümüzü, ömrümüzün hər saatını bizə bayram ovqatında keçirmək imkanı qazandırdı. Azərbaycan qadını, ana olaraq bu gözəl günləri bizə yaşadan Allaha şükür edib qələbəmizin müəllifi Prezidentimizə minnətdaram. Hər zaman doğma münasibətilə seçilən, bizə qayğı göstərən, dərdimizi də bizimlə birlikdə çəkən Mehriban xanımın bayramını təbrik edirəm".



Ağcabədi rayonundan olan gənc sahibkar **Zeynəb Seyidova** isə bildirdi ki, əgər mümkün olsa, uşaqlığımı, orta məktəbdə oxuduğum illəri tamamilə unudaram: "Məktəbdə sinif yoldaşlarımdan, dərsdə müəllimlərimdən tez-tez "qaçqın", "köçkün" ifadələrini eşidirdim. Evdə anamın ümidsiz halda göyə uzanan əllərini, yalvarışlarını görürdüm. Hər dəfə anama bizim nə zaman öz evimiz olacaq sualını verəndə, qızım, tezliklə torpaqlarımız azad olacaq, bizim də ev-eşiyimiz olar, cavabını alırdım. Hər bayramda gələn ilin bu gününü öz torpaqlarımızda keçirək dualarına öyrəncəli olmuşduq. Qaçqınlıq, köçkünlük həyatı mənim xoşbəxt, qayğısız yaşamalı olduğum uşaqlığımı məndən və mənim kimi minlərlə uşaqdan aldı. Anamın xatirələrindən tanıyırdım Ağdamı - valideynlərimin doğulduğu Yusifcanlı kəndini... İşğal altında olan torpaqların azad edilə biləcəyini ağlıma belə gətirmirdim. Hər dəfə anam dua edəndə "yox ana, bizim duamız qəbul olunan duaya oxşamır", - deyirdim. Bir gün səhər yuxudan top səslərinin gurultusuna oyandıq. Televizoru açanda müharibənin başlanması xəbərini eşitdik. Prezidentimiz xalqa müraciət edəndə onun üzündə qəzəbi, qətiyyəti, özünəinamı görüb, düyünlənmiş yumruğa baxıb sevincimdən göz yaşı axıtdım. Anladım ki, bu yumruq bizi evimizə aparacaq. Bu yumruq itirilmiş torpaqlarımızı qaytaracaq. Bu yumruq bizi evli-eşikli edəcək. İnandım ki, bu yumruq illərdir düşmənin bizdən aldığı nə varsa, geri qaytarmaq üçün düyünlənib. Artıq 5 ildir düşmən işğalı altında olan torpaqlarımız azad edilib. Azad olunmuş torpaqlarımız əsl abadlıq, quruculuq meydanına çevrilib. Doğma kəndlərini, rayonlarını valideynlərinin danışdıqları hekayələrdən tanıyan yüzlərlə gənc öz evinə qayıdır. Öz evində yaşamaq xoşbəxtliyinin nə olduğunu hiss edirlər".

XTQ-nin "Rəşadət" ordenli şəhid kapitanı Elçin İsmayılovun həyat yoldaşı **Sevinc İsmayılova:**



- Həyat yoldaşım XTQ-nin zabiti idi. Həmişə deyərdi ki, torpaqlarımızın işğal altında olması bir hərbçi kimi məni utandırır. Çox şükür ki, bu gün torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən şəhidlərimizin ruhu şaddır. Müzəffər Ali Baş Komandan torpaqlarımızı azad edib Azərbaycanı tam müstəqil, regionun ən qüdrətli dövləti etdi. İndi biz dövlətimizlə, vətənimizlə, bizə qələbə sevinci yaşadan ordumuzla, bu ordunu qurub onu qələbəyə aparan Prezidentimizlə fəxr edirik. Qürurluyam ki, torpaqlarımızın azad olmasında mənim həyat yoldaşım da iştirak edib. İşğaldan azad olunan torpaqlarımız bu gün gülüstana çevrilir. Qaçqınlar öz doğma yurdlarına qayıdır. Mənim həyat yoldaşımın can verdiyi o torpaqlarda yeni həyat başlayıb. Müharibə ailəmizin ən əzizini aldı. Amma xalqımız bizi tək qoymadı, dərdimizə şərik oldu. Dövlətimiz də hər an yanımızdadır, qayğısı ilə yaralarımızı sağaltmağa çalışır. Övladlarım Ömərlə Mübariz hər an dövlətin diqqətini üzərlərində hiss edirlər. Dövlətimiz onların yüksək səviyyədə təhsil almaları, gələcəyin layiqli vətəndaşları olmaları üçün hər şeyi edir. Sözsüz ki, Elçinin ayrılıq dərdi bizi çox üzür. Martın 8-də Elçinin məzarını ziyarət edəndə ona deyəcəm ki, cənab kapitan, rahat yat, uğrunda canını verdiyin bu vətəndə dövlət babamız bizi bütün qayğılardan azad etdi. Mənzilimiz tam təmir olunub. İki övladımız olduğu üçün dövlətimiz başqa bir yerdə də bizə üçotaqlı tam təmirli mənzil verib. İnanıram ki, bizim kimi bütün şəhid ailələri hər cür qayğı ilə əhatə olunublar. Bizə göstərilən diqqətə, qayğıya, verilən dəyərə görə dövlətimiz var olsun".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 8 mart (№52).- S.8.